Təsisçi: Azərbaycan Tibb Universiteti

# Təbib

Qəzet 1933 -cü ildən çıxır. http://www.amu.edu.az № 19 (1702) 15 noyabr 2019 - cu il Qiymәti 50 qәpik

# Bakıda Dünya dini liderlərinin II Sammiti keçirilir

# Azərbaycan Prezidenti İlham Əliyev Sammitdə iştirak edir

**Noyabrın 14-də Bakıda Dünya dini liderlərinin II Sammiti işə başlayıb.**

AZƏRTAC xəbər verir ki, Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və birinci xanım Mehriban Əliyeva Sammitdə iştirak edirlər. Əvvəlcə birgə foto çəkdirilib.

Sammit müqəddəs "Qurani-Kərim"dən ayələrin oxunması ilə başlayıb.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Sammitdə nitq söyləyib.

Sonra Prezident İlham Əliyevin Qafqaz Müsəlmanları İdarəsinin sədri Şeyxülislam Allahşükür Paşazadənin "Heydər Əliyev" ordeni ilə təltif edilməsi haqqında Sərəncamı oxunub.

Dövlətimizin başçısı İlham Əliyev "Heydər Əliyev" ordenini Şeyxülislam Allahşükür Paşazadəyə təqdim edib.

Qafqaz Müsəlmanları İdarəsinin sədri Şeyxülislam Allahşükür Paşazadə çıxış edib.

Sonra Moskvanın və bütün Rusiyanın Patriarxı Kirill çıxış edib.

Patriarx Kirill Rus Pravoslav Kilsəsinin birinci dərəcəli "Müqəddəs Serafim Sarovski" ordenini Şeyxülislam Allahşükür Paşazadəyə təqdim edib.

Şeyxülislam Allahşükür Paşazadənin anadan olmasının 70 illiyi ilə bağlı yubiley tədbirləri çərçivəsində keçirilən Sammitdə dünyanın 5 qitəsindən 70-dən çox dövlətin, 25 ənənəvi din və dini təriqətin lider və təmsilçiləri, həmçinin 10-dək nüfuzlu beynəlxalq təşkilatın 500-ə yaxın yüksək səviyyəli nümayəndəsi, o cümlədən Rusiya Federasiyası subyektlərinin başçıları və dini rəhbərləri iştirak ediblər.



## BU SAYIMIZDA




### "Çinar" rəqs ansamblının 60 illiyinə həsr olunmuş yubiley tədbiri 2

### ATU-da görkəmli cərrah Mürsəl Qarayevin 100 illiyi qeyd olunub



3

### Professor Misir Mərdanovun məruzəsi maraqla qarşılanıb 2





### Böyük Britaniyanın Baş nazirinin ticarət elçisi ATU-da qonaq olub 2

# "Çinar" rəqs ansamblının 60 illiyinə həsr olunmuş yubiley tədbiri

**Noyabrın 6-da Azərbaycan Dövlət Akademik Filarmoniyasında Azərbaycan Tibb Universitetinin "Çinar" rəqs ansamblının 60 illik yubileyinə həsr olunmuş təntənəli tədbir keçirilib.**





Tədbirdə Səhiyyə Naziri Oqtay Şirəliyev, Təhsil Naziri Ceyhun Bayramov, Mədəniyyət və turizm Naziri Əbülfəz Qarayev və digər qonaqlar iştirak ediblər.

ATU-nun rektoru, professor Gəray Gəraybəyli mərasimdə açılış nitqi ilə çıxış edərək respublikamızda incəsənət və mədəniyyətin inkişafına dövlət səviyyəsində dəyər verildiyini qeyd edib: "Şairlər yurdunun rəqqasə qızı Əminə xanım Dilbazinin 100 illik yubileyinin qeyd edilməsi ilə bağlı ölkə başçısının 4 sentyabr 2019-cu il tarixli sərəncamı bunu bir daha sübut edir. Bu sərəncamda Azərbaycan rəqs sənətinin çoxəsrlik ənənələrinin qorunub yaşadılmasında müstəsna xidmətləri olan Əminə xanımın 100 illik yubileyi ilə əlaqədar tədbirlər planının hazırlanması tapşırılıb. Əminə xanım ömrünün 47 ilini Azərbaycandakı ilk qadın ansamblı olan "Çinar" rəqs qrupuna həsr edib".

Sözünə davam edən professor G.Gəraybəyli bildirib ki, 1959-cu ildə Azərbaycan Dövlət Tibb İnstitutunda yaradılan "Çinar" rəqs ansamblı qısa müddətdə tamaşaçıların rəğbətini qazanıb. Ansamblın Moskvada keçirilən "Azərbaycan mədəniyyəti günləri"ndəki çıxışı çox bəyənilib. Ansambl yarandığı ilk gündən dünyanın müxtəlif ölkələrində uğurla çıxış edərək Azərbaycan rəqsinin, mədəniyyətinin nə qədər zəngin olduğunu dünya xalqlarına göstərib.

Rektor vurğulayıb ki, 60 il ərzində 1000-dən artıq tələbə ansamblın üzvü olub: "Bu tələbələr öz fitri istedadları ilə digərlərindən fərqləndiklərindən ansambla üzv ediliblər. Onlar həkimlik sənəti ilə yanaşı, rəqsin incəlikləri ilə də dərindən tanış olublar. Təsadüfi deyil ki, Əminə xanımı "Azərbaycan rəqs sənətinin şahzadəsi" adlandırırlar. Onun əsasını qoyduğu "Çinar" rəqs ansamblı bu gün də universitetimizdə ustad sənətkarın ənənələrini şərəflə davam etdirir".





Çıxışlardan sonra "Çinar" rəqs ansamblının yaranma tarixi və fəaliyyəti haqqında film izlənilib.

Tədbirdə yubileyi qeyd edilən "Çinar" rəqs ansamblının hazırladığı səhnəciklər, rəqslərlə yanaşı, tələbələrin ifaları da dinlənilib.

# Böyük Britaniyanın Baş nazirinin ticarət elçisi ATU-da qonaq olub

**Baronessa Emma Nikolsona ATU-nun yubiley medalı təqdim edilib**

**◆ Böyük Britaniyanın Baş nazirinin ticarət elçisi Baronessa Emma Nikolson və onu müşayiət edən şəxslər Azərbaycan Tibb Universitetində qonaq olub və rektorla görüşüblər.**



Görüş zamanı ATU-nun rektoru, professor Gəray Gəraybəyli qonaqlara rəhbərlik etdiyi ali tibb məktəbinin tarixi, təhsil və tədris prosesinin quruluşu, eyni zamanda universitetin beynəlxalq əlaqələri haqqında məlumat verib. ATU-nun həm elmi tədqiqat, həm də tədris sahəsində fəaliyyəti barəsində ətraflı məlumat verən rektor Azərbaycan və Böyük Britaniya ölkələri arasında bir sıra strateji istiqamətlər, o cümlədən tibb təhsili sahəsində əməkdaşlığın gücləndirilməsinin vacibliyindən danışıb. O, ATU-nun İngiltərədəki təhsil müəssisələri ilə münasibətlərinin yüksəlməsində maraqlı olduğunu bildirib.

Baronessa Emma Nikolson Böyük Britaniya ilə Azərbaycan arasında bir sıra vacib sahələrdə, o cümlədən səhiyyə sahəsində mövcud əməkdaşlığın səviyyəsindən razılığını ifadə edib. Qeyd edib ki, tibbi təhsil sahəsində mövcud əlaqələrin daha da genişləndirilməsi, uğurlu inkişafı üçün klinik və elmi tədqiqatlar, həmçinin, kadr mübadiləsinin təşkili böyük əhəmiyyət kəsb edir.

Görüşün sonunda Böyük Britaniyanın Baş nazirinin ticarət elçisi Baronessa Emma Nikolsona milli xatirə hədiyyəsi və ATU-nun 80 illik yubiley medalı təqdim olunub.

Görüşdə rektorun müşaviri, dosent Zülfüqar Musabəyov, elmi işlər üzrə prorektor, dosent Rauf Bəylərov, beynəlxalq əlaqələr üzrə prorektor, dosent Orxan İsayev iştirak ediblər.

Fəxri qonaqlar, həmçinin, ATU-nun Tədris Cərrahiyyə Klinikasının neonatologiya, mama-ginekologiya, reanimasiya şöbələrini gəzib, xəstələrin müalicəsi üçün istifadə edilən müasir avadanlıqlarla tanış olub, müalicə proseslərini izləyiblər. Klinikanın Tədris Treyninq Mərkəzində tələbələrin təlim keçməsi üçün yaradılan şəraitlə tanış olublar. Qonaqlar ATU-nun Tədris Cərrahiyyə Klinikasında xəstələrin yüksək keyfiyyətli müalicəsi üçün yaradılan şəraitin dünya standartlarına uyğun səviyyədə olmasından məmnunluqlarını ifadə ediblər.

# Professor Misir Mərdanovun məruzəsi maraqla qarşılanıb

**◆ Noyabrın 8-də ATU-nin Tədris Terapevtik Klinikasında seminar keçirilib.**

Seminarı ATU-nun elmi işlər üzrə prorektoru, dosent Rauf Bəylərov açaraq bildirib ki, dəyərli alim, AMEA-nın müxbir üzvü, professor Misir Mərdanov universitetin qonağıdır. Seminarın məhz Misir müəllimin təşəbbüsü ilə baş tutduğunu qeyd edən prorektor, əsas məqsədin ATU-nun doktorant, dissertant və alimlərinə İmpact Factor jurnallarında nəşr olunması üçün məqalələrin hazırlanma qaydaları və texnoloji incəlikləri barədə ətraflı məlumat verilməkdən ibarət olduğunu qeyd edib. Universitet əməkdaşlarının 2015-2016-cı illərdə 35 ədəd, 2017-2018-ci illərdə 101 ədəd yazdığı məqalələrin İmpact Factor jurnallarında dərc olunduğunu diqqətə çatdırıb. Hazırda isə dərc olunan məqalələrin 140-a yaxın olduğunu vurğulayıb.

R.Bəylərov həmçinin bildirib ki, ATU-nun mövcud potensialla bu qədər dərc olunan məqalələrin az olduğunu bildirib və bugünkü mühazirənin çox gümən ki, universitetimizdə elmi işlərin sayının artırılmasına təkan verəcəyini söyləyib.

Sonra söz professor Misir Mərdanova verilib. M.Mərdanov seminar iştirakçıları qarşısında "Nüfuzlu elmi jurnallara məqalə hazırlamağın yolları" mövzusunda çıxış edib. Məruzəçi məqaləni necə hazırlamaq, jurnalı necə seçmək və çap olunacaq məqalələri jurnallara təqdim etmə qaydaları barədə iştirakçılara ətraflı məlumat verib.





Professor onu da bildirib ki, WOS-un bazasına Azərbaycandan 8 jurnal, Scopusun bazasına isə 7 jurnal daxil edilib. Scopusun bazasına daxil olan jurnallardan ikisi - "Azerbaijan Pharmaceutical and Pharmacothearapy", "Azerbaijan Medical" tibbi profilli jurnallardır. Onlaran da "Azerbaijan Medical" jurnalı ATU-ya aiddir. Bunu Tibb Universitetinin bir uğuru kimi dəyərləndirən professor M.Mərdanov bir sevindirici xəbəri də diqqətə çatdırıb. Qeyd edib ki, əvvəllər Azərbaycan beynəlxalq arenada elmi məqalələrin dərcinə görə Cənubi Qafqazda sonuncu yerləri bölüşdürürdü. Amma 2018-ci ildə Web of Sciencenin bazasında olan jurnallarda çap olunmuş məqalələrin sayına görə Azərbaycan Cənubi Qafqaz respublikaları arasında ilk dəfə olaraq I yeri tutub. Belə ki, Azərbaycandan 1451, Ermənistandan 1216, Gürcüstandan 1187 məqalə dərc olunub. Bunlaradan 773-ü AMEA-nın institutlarının, 342-si BDU-nun, 129-u isə RMİ-nin əməkdaşlarının payına düşür.

Professor M.Mərdanov gənc alimlərə əsas ingilis dilini öyrənməyi tövsiyə edib və bu dili yaxşı mənimsəyərək elmi məqalələr üzərində diqqətlə işləməyi və məqalələrin sayını artırmağı diqqətə çatdırıb. Elmi məqalələri nüfuzlu jurnallarda çap olunan müəllifin hansı faydaları əldə edəcəyini deyib.

Disskusiya əsasında başa çatan seminarda professor M.Mərdanov çoxsaylı sualları da cavablandırıb.

**Qabil ABDULLAYEV**

# ATU-da görkəmli cərrah Mürsəl Qarayevin 100 illiyi qeyd olunub

**ATU-nun Tədris Cərrahiyyə Klinikasında tanınmış cərrah, vaxtilə Azərbaycan SSR Səhiyyə Nazirliyinin baş cərrahı olmuş Mürsəl Qarayevin 100 illiyi münasibətilə yubiley tədbiri keçirilib.**






Rəsmi şəxslər və tibb sahəsi üzrə mütəxəssislərin qatıldığı tədbirdə Səhiyyə naziri Oqtay Şirəliyev, Gənclər və İdman naziri Azad Rəhimov, Mədəniyyət naziri Əbülfəs Qarayev, Bakı Şəhər İcra Hakimiyyətinin başçısı Eldar Əzizov, Nəsimi rayonu İcra Hakimiyyətinin başçısı Asif Əsgərov, Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin sədri Hicran Hüseynova, Milli Məclisin deputatları və digər qonaqlar iştirak ediblər.

Açılış nitqi ilə çıxış edən ATU-nun rektoru, professor Gəray Gəraybəyli 100 illiyi qeyd olunan Mürsəl Qarayevin həyatı, səhiyyə sahəsindəki fəaliyyəti haqqında danışıb: "Tarixdə elə şəxsiyyətlər var ki, həmişə yadda qalır. Mürsəl Qarayev də belə şəxsiyyətlərdəndir. Mürsəl Qarayev Azərbaycanın ilk uşaq həkimi Əbülfəs Qarayevin ailəsində anadan olub. Dövlət Tibb İnstitutunu bitirdikdən sonra II Dünya Müharibəsi illərində cəbhədə olub, tibb-sanitar batalyonunda cərrah kimi işləyib. Kursk dairəsi döyüşlərində hərbi eşalonun baş həkimi olub. Yaralandıqdan sonra tibb xidməti kapitanı kimi ordudan tərxis olunub".

Sözünə davam edən G.Gəraybəyli bildirib ki, Mürsəl Qarayev 1960-1964-cü illərdə Azərbaycan Respublikası Səhiyyə Nazirliyinin baş cərrahı işləyib. Namizədlik və doktorluq dissertasiyasını müdafiə edib. 5 mindən artıq cərrahi əməliyyat aparan doktor Qarayevin son iş yeri o vaxtkı Azərbaycan Dövlət Tibb İnstitutunun "Travmatologiya, ortopediya və hərbi səhra cərrahiyyəsi" kafedrasında dosent vəzifəsi olub. O, müəllim kimi də tələbələrin rəğbətini qazanıb".

Rektor M.Qarayevin ailəsindəki şəxsiyyətlərdən, müharibədəki fədakarlıqlarından söz açaraq qeyd edib ki, M.Qarayev "Döyüşdə cəsurluğa görə", "Qafqazın müdafiəsinə görə", "Almaniya üzərində qələbəyə görə" medalları ilə təltif olunub.

Açılış nitqindən sonra tədbir iştirakçıları yubilyarın həyat və fəaliyyətndən bəhs olunan "Cərrah" sənədli filmini seyr ediblər.

Tədbirin davamında çıxış edən Milli Məclisin Səhiyyə Komitəsinin sədri, akademik Əhliman Əmiraslanov bildirib ki, belə yubileylərin keçirilməsi artıq ənənəyə çevrilib və bu, yaxşı haldır. O, M.Qarayevin cərrahiyyə sahəsindəki fəaliyyətindən söhbət açıb: "Cərrahiyyənin elə bir sahəsi yox idi ki, M.Qarayev cərrahi əməliyyatlar keçirə bilməsin. Bu, onunla bağlıdır ki, M.Qarayev həkim ailəsində - ilk pediatrlarımızdan olan Əbülfəs Qarayevin ailəsində dünyaya göz açmışdı. Onun belə geniş miqyaslı, istedadlı cərrah kimi yetişməsinin müharibə dövrünə təsadüf etməsi də rol oynayıb. O, orduyla birlikdə hərəkət edən hospitallarda fəaliyyət göstərirdi".

Xalq artisti Oktay Mirqasımov sənədli film haqqında fikirlərini bildirib. O, film üzərində çalışanlara təşəkkür edib və M.Qarayev haqqında yadda qalan xatirələrini bölüşüb.

Sonra sənədli filmin ssenari müəllifi və "Doktor Qarayev" kitabının müəllifi Səlim Babullaoğlu çıxış edib. O, kitabı yazdığı müddətdə bu ailənin tarixi, üzvləri haqqında geniş məlumata sahib olduğunu vurğulayıb. Fövqəladə Hallar nazirinin müavini Faiq Tağızadə də M.Qarayev ilə bağlı xatirələrini bölüşüb.

Mədəniyyət və turizm naziri Əbülfəs Qarayev ailələri adından tədbirin təşkilatçılarına və iştirakçılarına dərin minnətdarlığını bildirib. O, çıxışında, həmçinin, kitab və filmin müəlliflərinə təşəkkür edib. Qeyd edib ki, bu əsərlərdə müxtəlif yadda qalan anlar, məqamlar yada düşübsə, deməli M.Qarayev hədər yaşamayıb.

# Rektor Türkiyənin Boylam Psixiatrik Xəstəxanasının professoru ilə görüşüb

**Noyabrın 14-də Azərbaycan Tibb Universitetinin rektoru, professor Gəray Gəraybəyli Türkiyənin Boylam Psixiatrik Xəstəxanasının professoru, psixiatr Ertuğrul Köroğlu ilə görüşüb.**



Türkiyəli professor Ertuğrul Köroğlu ATU-ya gəldiyindən məmnun olduğunu deyib. O, təmsil etdiyi xəstəxana barədə məlumat verib. Ankarada yerləşən Boylam Psixiatrik Xəstəxanasında ruhsal xəstəliklərlə yanaşı, bir sıra alkoqol qəbulu ilə bağlı yaranmış xəstəliklər, eləcə də, narkoloji problemlər üzrə ixtisaslaşmış mütəxəssislərin çalışdığını bildirib: "Müəssisəmiz 51 yataqlı özəl xəstəxanadır. Türkiyənin ən böyük psixiatrik xəstəxanasıdır. Mən Azərbaycanla da sıx əməkdaşlıq edirəm. Ayda bir dəfə Xəzər Universitetinin magistrantları üçün dərslər keçirəm. Sizinlə də əlaqələrimizin sıx olmasını arzu edirəm. Həm təhsil ocağınız, həm də tibb müəssisələrinizlə qarşılıqlı iş birliklərimizin olmasını istərdim".

ATU-nun rektoru, professor Gəray Gəraybəyli də rəhbərlik etdiyi təhsil ocağı barədə qonağı məlumatlandırıb. ATU-nun nəzdində 4 klinikanın fəaliyyət göstərdiyini qeyd eden rektor Azərbaycanda tibb, həmçinin psixiatriya sahəsində müntəzəm yeniliklərin həyata keçirildiyini vurğulayıb: "Mənim müəllimim, professor Ağabəy Sultanov deyirdi ki, tibbdə sahələri dəyişmək olur. Məsələn, kardioloq cərrah olur, terapevt sahəsini dəyişərək pulmanoloq olur və s. Amma psixiatriyaya təsadüfi adam düşə bilməz, düşərsə də bu işi yarımçıq tərk edər".

Professor G.Gəraybəyli rektorluqla yanaşı, həkim kimi də çalışdığını deyərək, həftədə iki dəfə xəstəxanaya baş çəkdiyini, xəstələri müayinə etdiyini və kafedrada mühazirələr oxuduğunu bildirib: "10 il respublikanın baş psixiatrı olaraq çalışmışam. İstər universitetdə, istərsə də digər yerlərdə psixiatriya sahəsinin inkişafı üçün əlimdən gələni edirəm. Bununla bağlı bir sıra təkliflər hazırlayıb Səhiyyə Nazirliyinə də təqdim etmişəm. ATU-da gələn ildən magistraturada klinik psixologiya ixtisası açılacaq. Sizi bizim universitetdə də "Visiting Professor" kimi görməkdən məmnun olarıq".

Görüşdə psixiatriya sahəsindəki yeniliklərdən, Azərbaycan Tibb Universiteti ilə Boylam Psixiatrik Xəstəxanası arasında gələcəkdə qarşılıqlı əlaqələrin qurulması məsələlərindən danışılıb.

Görüşdə ATU-nun beynəlxalq əlaqələr üzrə prorektoru, dosent Orxan İsayev də iştirak edib.

# I Müalicə-profilaktika fakültəsinə yeni dekan seçilib

**Noyabrın 1-də I Müalicə-profilaktika fakültəsinin genişləndirilmiş elmi şurası keçirilib. Fakültənin dekan əvəzi, Biofiziki və bioüzvi kimya kafedrasının assistenti Natiq Bayramov fakültə elmi şurasının iclasını açaraq I Müalicə-profilaktika fakültəsinin dekan vəzifəsinə seçkinin müzakirə olunacağını diqqətə çatdırıb.**





Fakültə elmi şurasının üzvlərini salamlayan universitetin tədris və müalicə işləri üzrə prorektoru, professor Sabir Əliyev 19 kafedranı birləşdirən I Müalicə-profilaktika fakültəsinin universitetin ən böyük fakültəsi olduğunu bildirib. Çıxışının əvvəlində dekanlıqla kafedraların əlaqəli şəkildə işləmələrinin vacibliyinə toxunan prorektor bu əlaqələrin yetərincə olmadığını təəssüflə qeyd edərək bir sıra tövsiyələrini verib.

S.Əliyev yeni seçiləcək dekanın öz işinin öhdəsindən layiqincə gələcəyinə əminliyini vurğulayaraq Elşad Novruzovun hələ tələbəlik dövründə öz fəallığı ilə seçildiyini, universitetin ictimai həyatında yaxından iştirak etdiyini deyib: "Sonrakı dövrdə dissertasiya müdafiə edərək tibb üzrə fəlsəfə doktoru elmi dərəcəsini alıb, dosent seçilib. Eyni zamanda Tələbə Həmkarlar İttifaqı Komitəsinin sədri kimi fəaliyyət göstərib. Ona görə tələbələrlə iş aparmaq səriştəsi də yüksəkdir. Düşünürəm ki, ona səs verilərsə fakültənin işində müəyyən müsbət irəliləyişlər olacaq".

Bundan sonra fakültə elmi şurasının üzvləri səsvermədə iştirak ediblər. Səsvermənin nəticələrinə görə dosent Elşad Novruzov fakültənin dekanı seçilib.

**ATU-nun mətbuat xidməti**

# Dövlət Bayrağımız müstəqilliyimizin rəmzidir

**Hər bir xalqın dövlət rəmzlərindən olan bayraq onun varlığının, mövcudluğunun sübutu, dövlət qurmaq və ona sahib çıxmaq bacarığının əsas göstəricilərindən biridir.**



Bayraq həm də dövlətin və xalqın kimliyinin, apardığı azadlıq mücadiləsinin, təfəkkür və düşüncə tərzinin, mənəvi dünyasının göründüyü ən şəffaf və dəqiq meyardır. Azərbaycan xalqının azadlığı, suverenliyini, öz istiqlalı uğrunda apardığı mübarizəni, milli kimliyini tərənnüm edən üçrəngli bayrağı xalqımızın azadlıq məfkurəsinə, milli-mənəvi dəyərlərə və ümumbəşəri ideallara sadiqliyini nümayiş etdirir. Məhz onun üçün də atributlardan məna və məzmun etibarilə ən güclü təsir qüvvəsinə malik olan rəmz məhz bayraqdır. Lakin tarixi həqiqət ondan ibarətdir ki, ən ali dəyərlərini özündə ehtiva edən bayrağını dalğalandıra bilmək hər xalqa nəsib olmur. Bu baxımdan Azərbaycan xalqı xoşbəxtdir. Dövlətçilik ənənələri hələ antik dövrlərdə mövcud olmuş etnik-siyasi özünütəşkil mədəniyyətinə söykənən Azərbaycan xalqının bu gün müstəqil bayrağa malik olması da onun xoşbəxtliyi və həm də mənəvi haqqıdır. Çünki o bayrağı yenidən dalğalandıra bilmək səadəti xalqımızın azadlığa bəslədiyi sevgidən qaynaqlanan əzmkar və davamlı mübarizəsi ilə gerçəkliyə dönmüşdür...

Azərbaycan Dövlət Bayrağı 1918-ci il noyabrın 9-da Azərbaycan Xalq Cümhuriyyəti Hökumətinin iclasında qəbul edilib və 1920-ci ilin aprel ayının 28-dək dövlət statusuna malik olub. 1920-ci il aprelin 28-də Xalq Cümhuriyyəti süqut etdikdən və sovet hakimiyyəti qurulduqdan sonra bayrağımız düz yetmiş il ərzində unudulmadı, ürəklərdə yaşadıldı, xatirələrdə canlandırıldı, yaddaşlarda dərin iz buraxdı.

1990-cı il iyunun 22-də xalqımızın dahi oğlu, görkəmli dövlət xadimi Heydər Əliyevin Naxçıvana böyük siyasətə qayıdışı Naxçıvandan başlanan milli dirçəliş prosesinin bütün Azərbaycanın siyasi mühitində aparıcı qüvvəyə çevrilməsinə, milli dövlətçiliyin bərpası istiqamətində qəti addımların atılması ilə müşayiət olunmağa başlanmışdı. Xalqımızın mənəvi və təfəkkür dünyasının meyarı olan üçrəngli bayrağımız ikinci dəfə sovet hakimiyyətinin hələ mövcud olduğu dövrdə Türk dünyasının fenomeni, əbədi yaşar Heydər Əliyevin rəhbərliyi ilə 1990-cı il noyabrın 17-də Naxçıvan Muxtar Respublikası Ali Məclisinin qərarı ilə bərpa edildi, qədim Azərbaycan diyarı Naxçıvanda dövlət bayrağı olaraq qəbul edildi, yüksəklərə ucaldıldı. Beləliklə, çağdaş dövrümüzün müdrik siyasi xadimi ulu öndər Heydər Əliyev üçrəngli bayrağımızı yaşatmaq məqsədilə Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Azərbaycan SSR Ali Sovet qarşısında vəsatət qaldırılması üçün gərgin iş gördü. Azərbaycan Respublikası Ali Soveti 1991-ci ilin fevralın 5-də "Azərbaycan Respublikasının Dövlət Bayrağı haqqında Azərbaycan Respublikasının Qanunu"nu qəbul etdi və bu aktla milli bayrağımız Azərbaycan üzərində dalğalanmağa başladı.

1991-ci il oktyabrın 18-də "Azərbaycan Respublikasının dövlət müstəqilliyi haqqında Konstitusiya Aktı" qəbul olunduqdan sonra Azərbaycan Xalq Cümhuriyyətinin varisi kimi, onun dövlət rəmzlərini, o cümlədən Dövlət Bayrağını bərpa etdi.

Dövlət bayrağı dövlətin rəsmi fərqləndirici əlamətidir. Konstitusiyanın 75-ci maddəsinin birinci bəndində qeyd olunur ki, hər bir vətəndaş Azərbaycan Respublikasının dövlət rəmzlərinə - bayrağına, gerbinə və himninə hörmət etməlidir. Bundan əlavə, ulu öndər Heydər Əliyevin ölkə başçısı kimi 1998-ci il 13 mart tarixli "Azərbaycan Respublikasının dövlət atributlarının təbliği işinin gücləndirilməsi haqqında" sərəncamı dövlət atributlarının təbliği baxımından mühüm əhəmiyyət daşımışdır.

Azərbaycan Respublikasının dövlət rəmzlərinə hörmət və ehtiramı təmin etmək məqsədilə ölkə Prezidenti cənab İlham Əliyev 2009-cu il noyabrın 17-də "Azərbaycan Respublikasının Dövlət Bayrağı gününün təsis edilməsi haqqında" sərəncam imzalamışdır. Bu sərəncamla hər il noyabrın 9-u Azərbaycan Respublikasının Dövlət Bayrağı Günü kimi qeyd edilir.

Ölkə Prezidenti cənab İlham Əliyevin təşəbbüsü ilə möhtəşəm Dövlət Bayrağı Muzeyi də yaradılıb. 2010-cu il sentyabrın 1-də Dövlət Bayrağı Muzeyinin təntənəli açılışı mərasimində çıxış edən cənab İlham Əliyevin bayrağımızla bağlı fikirləri olduqca qürurvericidir. Dövlətimizin başçısı deyib: "Bayraq Meydanı Bakının bir mədəniyyət mərkəzinə, Azərbaycanın siyasi bir mərkəzinə çevriləcəkdir. Ölkəmizin mərkəzi olan Bakı şəhərində belə möhtəşəm meydanın yaradılması, doğrudan da, böyük hadisədir. Bizim bayrağımız qürur mənbəyimizdir. Bizim bayrağımız canımızdır, ürəyimizdir. Bu gün Azərbaycanın hər bir yerində dövlət bayrağı dalğalanır. Azərbaycan ərazi bütövlüyünü bərpa edəndən sonra milli dövlət bayrağımız bu gün hələ də işğal altında olan torpaqlarda qaldırılacaqdır. Bizim bayrağımız Dağlıq Qarabağda, Xankəndidə, Şuşada dalğalanacaqdır. O günü biz hər an öz işimizlə yaxınlaşdırmalıyıq və yaxınlaşdırırıq".

Cəmiyyətimizdə milli özünüdərk amalının, həmrəylik duyğularının, milli maraqlarımız uğrunda mübarizə əzminin yüksəlişi onu deməyə əsas verir ki, xalqımızın ürəyi döyündükcə, milli bayrağımız da dalğalanacaqdır. Çünki bayrağımız milli vəhdətimizin rəmzidir. Bu vəhdət bizim üçrəngli bayrağımızı daha uca zirvələrə qaldıracaq və onu ata yurdumuz Qarabağa, Şuşaya və Xankəndinə daşıyacaqdır. Azərbaycanın əbədi varlığını təcəssüm etdirən bayrağımız nəinki bir daha enməyəcək, müstəqilliyimizin və tərəqqimizin ulduzu kimi parlayacaq.

**Elbrus SADIQOV,**
*İctimai fənlər kafedrasının dosenti*

# İmmundefisit sindromlu uşaqların 5-ci Beynəlxalq Rəsm Festivalı

**2019-cu ilin noyabr ayında Macarıstanın paytaxtı Budapeşt şəhərində İmmundefisit sindromlu uşaqların 5-ci Beynəlxalq Rəsm Festivalının təltif mərasimi keçiriləcək.**

Bu tədbiri təşkil edən ATU-nun ET İmmunologiya laboratoriyasının rəhbəri, professor G. Nəsrullayeva və onun əməkdaşları olub. Bu kollektiv Anadangəlmə İmmun Çatışmazlıq problemi ilə 10 ildən çox məşğul olaraq elmi araşdırmalar aparıb, dunyanın nüfuzlu beynəlxalq konfranslarında iştirak edib və tibb jurnallarında elmi məqalələr dərc edib, bir çox xarici elmi mərkəzlərlə sıx əlaqələr yaradıb. Professorlar G. Nəsrullayeva, A. Əyyubova, H. Qabulov, N. Sultanova, assistent A. Çernik-Bülənd və bir qrup pediatr belə patologiyası olan xəstələrin müayinəsi və müalicəsinin təşkilində bilavasitə iştirak edirlər. ATU-nun bir çox yerli və xarici tələbələri, professor və müəllimləri sərgiyə böyük maraq göstəriblər. Belə tədbirlərin mütəmadi keçirilməsi Anadangəlmə İmmun Çatışmazlıq probleminə həm tibb işçilərinin, həm də içtimaiyyətin diqqətini cəlb edir.



Festivalın əsas məqsədi balaca pasiyentlərin xəstəlikləri ilə bağlı düşüncələrini və yaşadıqları hissləri bütün dünyaya çatdırmaqdır. Gənc müəlliflər dünyanın 30-dan çox ölkəsindən 2000 rəsm əsəri təqdim etmiş və münsiflər heyəti tərəfindən onlardan 44 ən gözəl şəkil qalib seçilmişdir. Uşaqlar arzularını rəngli çalarlarla çəkdikləri əsərlərdə ifadə ediblər. Festivalda qalib gələn gənc rəssamların əsərləri oktyabr ayında dünyanın bir çox ölkələrində və səhiyyə ocaqlarında nümayiş olunub. Ənənəvi olaraq Azərbayacandan da bir neçə xəstə uşağın rəsm işi müsabiqəyə təqdim edilib və onlardan 9 yaşlı Səfərli Zaurun rəsmi qaliblər sırasındadır.

# Universitetin "Pandemia" komandasının əyləncəli-yumoristik tədbiri keçirilib

**Noyabrın 8-də Azərbaycan Tibb Universiteti Tələbə Həmkarlar İttifaqı Komitəsinin "Şən və hazırcavab klubu" nun təşkilatçılığıyla "Pandemia" komandasının əyləncəli-yumoristik tədbiri keçirilib.**

Tədbiri giriş sözü ilə ATU-nun THİK-nin sədri Elvin Kərimli açaraq bildirib ki, tələbələrin asudə vaxtalarını səmərəli keçirmələri məqsədilə onun rəhbərlik etdiyi təşkilat vaxtaşırı tədbirlər keçirir. Bu günkü tədbir də növbətidir: "Tələbələrin ağır dərs yükündən bir neçə saatlığa azad olması, streslərini atması üçün bu cür əyləncəli-yumoristik tədbirin keçirilməsinə ehtiyac var. Hesab edirəm ki, bu gün tədbirdə iştirak edən universitetimizin və digər universitetlərin tələbələri lazımi şəkildə şənlənəcək, istirahət edə biləcəklər".



Sonra ATU-nun THİK-nin sədr müavini Cavid Mustafazadə klubun təşkil olunması ilə bağlı tədbir iştirakçılarına geniş məlumat verib. Bildirib ki, klub 2017-ci ildə İctimai səhiyyə fakültəsinin tələbələri Pərviz və Bəhruz Həsənovlar tərəfindən təsis olunub. Klubda "Senarist tayfa", "Aktyorlar truppası", "Səhnəarxası heyət" və "Hazırcavablar" qrupunun fəaliyyət göstərdiyini və klubun hər il Azərbaycan Rəsmi Şən və Hazırcavablar Liqasının keçirdiyi tədbirlərdə iştirak etdiyini qeyd edib.

İctimai Səhiyyə fakültəsinin VI kurs tələbəsi, universitetin "Şən və hazırcavablar klubun"un sədri, Pandemia" komandasının kapitanı Zeynəb Bağırova isə öz çıxışında klubun 20 aktiv üzvü olduğunu diqqətə çatdırıb. Onun sözlərinə görə, klub yarandığı gündən indiyədək 3 dəfə universitetdaxili tədbir keçirib. Həmişə tələbələr tərəfindən maraqla qarşılanıb. İndi də hesab edir ki, elə olacaq. Tələbələr doğrudan da əyləncəli çıxışları, oynadıqları rollarla tədbir iştirakçılarının diqqətini çəkə bilib.

Klub üzvləri "Avtobusda hadisə", "Bəxt üzüyü 0.5", "Dəlilər şəhərdə", "Qırmızıpapağın nağılı", "Səni itirirəm", "Zevsin balası" adlı səhnələrdə oynadıqları rollarla dəfələrlə tamaşaçıların alqışlarını qazanıblar.

Tədbirdə Azərbaycan Rəsmi Şən və Hazırcavablar Liqasının direktoru Hüseyn Şahverdiyev də iştirak edib. Ürək sözlərini diqqətə çatdıran direktor klub üzvlərinin fəaliyyətini yüksək qiymətləndirərək onlara fəaliyyətlərində uğurlar arzulayıb.

**ATU-nun mətbuat xidməti**



## Azərbaycan Tibb Universitetinin Tədris Cərrahiyyə Klinikasının əməkdaşı Mahir Əliyev Azərbaycan Milli Xalq İdman Oyunlarının XXIX Respublika Spartakiadasında milli güləş idman növü üzrə I yeri tutduğuna görə diplomla təltif edilib.

# İctimai Səhiyyə fakültəsində interaktiv seminar keçirilib

**Tələbələrə qidalanmanın zərərli vərdişlərindən danışılıb**

**◆ Noyabrın 7-də Azərbaycan Tibb Universitetinin İctimai səhiyyə fakültəsinin tərkibində fəaliyyət göstərən "Capacity Building Club"un təşkilatçılığı ilə seminar keçirilib. Seminarda İctimai səhiyyə fakültəsinin tələbələri ilə yanaşı, universitetin ayrı-ayrı fakültələrində təhsil alan tələbələri də iştirak edib.**



Seminarda açılış nitqi ilə çıxış edən fakültə dekanı, professor Anar Ağayev son dövrlər ATU-da aparılan çoxsaylı islahatlardan – semestr ərzində I və II kurs tələbələrinə aralıq qiymətləndirmənin tətbiqindən, müəllimlərin müsabiqə yolu seçkisi zamanı tələbələr tərəfindən qiymətləndirilməsindən, aparılan çoxsaylı islahatların effektiv nəticələrindən və.s söhbət açıb. Dekan bildirib ki, Universitet rəhbərliyinin apardığı islahatların əsas məqsədi Avropa təhsil sisteminə inteqrasiya edərək, tələbələrə yüksək səviyyədə təhsil verməkdən və onlarda təhsilə maraq oyatmaqdan ibarətdir.

A.Ağayev hazırda rəhbərlik etdiyi fakültənin də aparılan islahatlardan kənarda qalmadığını qeyd edib: "Belə islahatlardan biri də yaxın gələcəkdə fakültəmizin həm bakalavr, həm də magistr pilləsi üzrə yeni yaranacaq ixtisaslarıdır. Biz bu gün tələbələrin peşə və bacarıqlarının motivasiyasını artırmaq məqsədilə yeni təşkil olunan "Capacity Building Club"unun açılışına toplaşmışıq. Fakültənin dekan müavini dosent Q.Qəniyevanın və fəal tələbələrin təşəbbüsü ilə yaradılmış bu klubda atdığımız addımların ardıcıl olacağını planlaşdırırıq". Dekan qeyd edib ki, klub tərəfindən təşkil olunan ilk tədbir diskussiya xarakterli olacaq.

Sonra tədbirdə iştirak edən qonaqlardan həkim-terapevt İradə İmanova "Qidalanmanın zərərli vərdişləri və onlara qarşı mübarizə yolları" mövzusunda məruzə ilə çıxış edib. Məruzəçi insanların əksəriyyətinin düzgün qidalanma qaydalarına əməl etmədiklərini, bunun orqanizm üçün yaratdığı fəsadlardan, əmələ gətirdiyi bir sıra ağır xəstəliklərdən söhbət açıb. Qeyd edib ki, çörəyə qatılmış maya çoxsaylı xəstəliklərə səbəb olur. Həkim bildirib ki, hətta pasiyentləri çörəkdən imtina etdirməklə onlarda yaranan bir sıra xəstələri tam şəkildə müalicə edib. Pasiyentin xəstəlik zamanı və müalicədən sonra verdiyi laborator instrumental müayinələrin nəticələri seminar iştirakçılarında böyük maraq doğurub. Onun müalicə etdiyi xəstəliklər sırasına şəkərli-diabet, hipertoniya, mədə-bağırsaq, iflic və s. aid etmək olar.

Həkim-terapevtin etdiyi məruzə iştirakçıların böyük marağına səbəb olub. Məruzəçi ona ünvanlanan çoxsaylı sualları geniş şəkildə cavablandırıb. Sonda İ.İmanova tələbələrlə disskusiya xarakterli seminarda iştirakından məmnun olduğunu və tədbirdən xoş təəssüratlarla ayrıldığını bildirib.

# Nümayəndəmiz Antalyada keçirilən konqres və simpoziumda çıxış edib

**◆ Türkiyənin Antalya şəhərində 6-cı Milli, 5-ci Beynəlxalq Aralıq Dənizi Ətrafı Dövlətlərin Metabolik Xəstəliklər Konqresi, eyni zamanda 1-ci Milli Metabolik və Bariatrik Cərrahi Dietologiya konqresi və 31-ci Beynəlxalq Bariatrik Klub Simpoziumu keçirilib.**




20 dövlətdən mindən çox mütəxəssisin qatıldığı tədbirdə Azərbaycan Bariatrik-Metabolik Cərrahlar Assosiasiyasının sədri, ATU-nun I Cərrahi xəstəliklər kafedrasının əməkdaşı, tibb üzrə fəlsəfə doktoru Tariyel Ömərov da iştirak edib. Ömərov Azərbaycanın səhiyyə sektorunda bu sahənin inkişafı ilə bağlı görülən tədbirlər haqda məlumat verib. Konqresdə, həmçinin, Milli Elmlər Akademiyasının müxbir üzvü, professor N.Bayramov, II cərrahi xəstəliklər kafedrasının əməkdaşı E.Abdinov, III cərrahi xəstəliklər kafedrasının əməkdaşı E.Nəbiyeva, həkim-mütəxəssis E.Rzayev, dietoloq T.Zeynalova və İ.Şamilov da çıxış ediblər. T.Ömərov konqresin beynəlxaql işlər üzrə katibi seçilib. Tədbirdə Qazaxıstan, Türkmənistan, Özbəkistan və Qırğızıstan bariatrik cərrahlarına da yer ayrılıb. T.Ömərov bildirib ki, bu dövlətlərdə bariatrik cərrahiyyə yenidir, Azərbaycan yaxın gələcəkdə Xəzəryanı türk xalqlarının dərnək olaraq fəaliyyət göstərməsində köməklik edə bilər.

Qeyd edilib ki, 31-ci Beynəlxalq Bariatrik Klub 2016-cı ildən rəsmi olaraq Oxford Universitetinin nəzdində yaradılıb və T.Ömərov klubun elmi panellər üzrə ekspertlər sırasına daxildir. Ömərovun artıq 5 ildir üzərində çalışdıqları bariatrik-metabolik cərrahiyyə metodlarından ən çox tətbiq edilən mədənin boylama rezeksiyası (el arasında mədə kiçiltmə kimi tanınan Sleeve gatsrectomy) əməliyyatının modifikasiyasından bəhs edən çıxışı maraqla qarşılanıb. Hazırda cərrahi ağırlaşmalarının qarşısının alınmasında çox sayda araşdırmalar var. Konqresdə dünyada bu sahədə tanınmış professorların təcrübələri ilə də tanışlıq olub.

# Tələbələrimiz mötəbər yarışmada uğurla çıxış ediblər

**Azərbaycan Tibb Universitetinin tələbələri təhsillə yanaşı, digər sahələrdə də uğur qazanmaqdadır. Bunlardan biri də idman sahəsidir. Bu günlərdə Tələbələrimiz kyukoşin üzrə 1-ci açıq Milli Azərbaycan Çempionatında qələbə qazanaraq yüksək yerlərə layiq görülüblər.**





Dünya Kyokuşin Birliyi (Kyokushin World Union) Azərbaycanın təşkilatçılığı ilə uşaqlar, yeniyetmələr, gənclər, kişilər və qadınlar arasında 1-ci açıq Milli Azərbaycan Çempionatında 30 komanda tərkibində 240 idmançı iştirak edib. Onlar arasında ATU-nun "Təbib" idman klubunun üzvləri də olub.

Çempionatdakı uğurlu çıxışlarından sonra Stomatologiya fakültəsinin III kurs tələbəsi Leyla Xudiyeva 60 kq çəki dərəcəsində III yeri tutub. II kurs tələbələri Nəstərən Qərari (70 kq çəki dərəcəsi) və Nesa Xeyrullahniya (+70 kq mütləq çəki) 1-ci yerə çıxamaqla qızıl medal qazanıblar.

Qeyd etmək yerinə düşər ki, tələbələrimiz arasında Kyokuşin karate ilə məşğul olanlarla yanaşı, hakim qismində çalışanları da var. Yarışlardan əvvəl keçirilən test və təcrübi hakimlik seminarlarında fəal iştirak edən tələbələrin bəziləri bu işdə də özlərini sübut edə biliblər. Belə ki, universitetin İctimai Səhiyyə fakültəsinin V kurs tələbəsi Arzu İsmayılov, Hərbi Tibb fakültəsinin IV kurs tələbəsi Fərman Süleymanov və Stomatologiya fakültəsinin II kurs tələbəsi Samir Hüseynov bu yarışda hakimlik etmək üçün vəsiqə qazanıblar.

Bu mötəbər yarışda ATU-nun IV-VI kurs tələbələrindən bəziləri ilkin tibbi yardım xidmətində təmsil olunublar. Yarışdan əvvəl onlar üçün ilkin tibbi xidmətin təşkili ilə bağlı xüsusi seminarlar təşkil olunub. Nəticədə Turan Əliyeva, Elcan Həmidli, Maya Nəğdizadə, I MPF-nin V-VI kurs tələbələri Şükriyyə Əliyeva, Ehtibar Abbasov, İrman Nəsirov və Fərid Cavadzadə bu işdə universitetimizi layiqincə təmsil ediblər. Stomatologiya fakültəsinin dekanı, dosent Səid Əhmədovun rəhbərliyi ilə tələbələr döyüşlər zamanı zədə alan idmançılara ilkin tibbi yardım göstərilməsi üçün lazımi avadanlıqlar və dərman preparatları ilə təmin olunmuşdu.

Bu xidmətdə təmsil olunan Elcan Həmidli bu vəzifənin məsuliyyətli oilduğunu deyir: "Döyüşlərin hamısını diqqətlə izləmək lazım idi ki, zədə alan idmançıya vaxtında lazımi yardımı göstərə biləsən. Bəzən güclü zərbələrdən idmançı sarsılırdı və həkimin rəyi olmadan idmançının döyüşü davam etdirməsinə icazə verilmirdi. Ona görə də döyüşlər zamanı zədə alan idmançıya operativ yardım etmək üçün tam məsuliyyətimizlə çalışırdıq. Hətta qadağan olunmuş zərbədən idmançı zədələnirdisə, hakimlərdən çox həkimin rəyi qərarı dəyişə bilirdi. Belə yarışlar bizim üçün böyük təcrübə idi. Gələckdə dəvət etsələr, yenə də qatılmağa hazırıq".

Dünya Kyokuşin Birliyi Azərbaycanının sədri, Azərbaycan çempionatının baş hakimi, beynəlxalq dərəcəli hakim, əməkdar məşqçi Qələndər Aslanovun sözlərinə görə, çempionata qatılmaq istəyən tələbələrlə yanaşı, ATU-nun müxtəlif fakültələrindən olan könüllülər də təşkilati işlərdə aktivlik nümayiş etdiriblər.

Belə könüllülərdən biri - ATU-nun Tələbə Gənclər Təşkilatının sədri Rauf Vəliyev deyir ki, tələbələr bu cür yarışlarda könüllü olmağa çox həvəs göstərirlər: "Çempionata könüllülərin cəlb olunmasında iştirak edirdim. Əvvəlcədən onlarla görüşüb onları təlimatlandırdım, müvafiq geyimlə təmin etdim. Tələbələrimiz də yarış günü böyük həvəslə öz işlərinin öhdəsindən gəldilər".

Qeyd edək ki, çempionatda işləyən könüllülər qrupuna Stomatologiya fakültəsinin tələbələri Ülkər Hüseynova, Rəsul Mustafazadə, İctimai Səhiyyə fakültəsinin tələbələri Aysel İsmixanova, Rəşad Qurbanzadə, Abyət Vəlizadə, Əczaçılıq fakültəsinin tələbələri Zöhrə Məmmədova, Firəngiz Abasova, Güllər Şərifova daxil olublar.

Yarışmada könüllü qismində iştirak edən Aysel İsmixanova özü karate ilə məşğul olmasa da, könüllü kimi bu tədbirdə iştirak etmək təklifini maraqla qarşılayıb: "Çempionatdan öncə azyaşlı uşaqların döyüşünə baxanda qərara aldım ki, vaxt tapıb məşqlərə başlayacağam. Mən yarışın aparıcısı kimi idmançıları döşəyə dəvət edirdim, qalib idmançını elan edirdim. Çox məsuliyyətli iş idi. Əvvəl mikrofonu əlimə alanda səsim həyəcandan titrəyirdi. Sonradan sakitləşdim və fikrimcə, mənə verilən tapşırıqların öhdəsindən layiqincə gəldim".

Çempionatın sonunda tibbi xidmət göstərən, könüllülər qrupunda təmsil olunan və hakimlik edən ATU-nun tələbələrinə təşəkkürnamələr təqdim olunub.

# ATU-nun şahmat komandası Universiadanın qalibi oldu

**◆ Oktyabrın 29-da ATU-nun şahmat idman növü üzrə komandası "Gənclik" tələbə idman cəmiyyətinin Təhsil Nazirliyi ilə birlikdə keçirdiyi yarışlarda iştirak edib.**



Respublikanın 16 ali məktəbinin qatıldığı və gərgin mübarizə şəraitində keçən yarışda ATU-nun komandası qadınlar və kişilər arasında I yeri tutub.

Bununla da XIV Respublika Universiadası ATU-nun parlaq qələbəsi ilə başa çatıb. Bu münasibətlə komanda üzvləri İslam Xudiyev (I MPF, I kurs, qrup $119^{A9a}$), Toğrul Abdullayev (I MPF, II kurs, qrup $117^{r2}$), Fərid Aslanov (II MPF, I kurs, qrup $219^{A3a}$), Çinarə Quliyeva (II MPF, I kurs, qrup $219^{A6a}$), Şəbnəm Cavadlı (II MPF, I kurs, qrup $219^{A11a}$), Eldar Novruzov (II MPF, II kurs, qrup $317^{A19}$), Nisə Bayramova (II MPF, III kurs, qrup $361^{A3}$), Günay Nəsirova (II MPF, V kurs, qrup $242^{b}$), Vüsal Həsənzadə (HTF, II kurs, qrup $517^{A4}$), Mədinə Muxtarova (Əczaçılıq fakültəsi, I kurs, qrup $519^{A2b}$), Seymur İsmaylov (Əczaçılıq fakültəsi, I kurs, qrup $419^{A3a}$) və komandanın rəhbəri, professor Kamal Kəbirlinskini təbrik edirik. İdmançılarımızın bu uğuru həm də Azərbaycan Tibb Universitetinin 90 illik yubileyinə bir töhfədir.

**ATU-nun mətbuat xidməti**

İmadəddin Nəsimi - 650

# NƏSİMİ YARADICILIĞINDA SÖZ

**Azərbaycan nitq mədəniyyəti özünün bugünkü yüksək səviyyəsinə çatmasında təbii ki, xalqa və onun mütəfəkkir övladlarına borcludur. Ulu Öndərimiz Heydər Əliyev bu məsələlərə öz fikrini belə bildirirdi: "Bu gün müstəqil bir dövlət kimi ən fəxr etdiyimiz bir də odur ki, bizim gözəl Azərbaycan dilimiz var. Azərbaycan dilinin formalaşmasında, inkişaf etməsində, bugünkü səviyyəyə çatmasında yazıçılarımızın, şairlərimizin, ədəbiyyatşünasların, dilçi alimlərin xidməti var".**




Son illər söz məfhumu, söz konsepti haqqında tez-tez danışırıq. Bircə şey hamımıza yaxşı məlumdur. Allah bu mövcud kainatı "filosof"ların nə düşünməyindən asılı olmayaraq "OL" sözü ilə yaratmışdır. Söz haqqında kimlər deməmiş?! Ağıllı dünyanın qəbul etdiyi mütəfəkkirlərin hamısının söz haqqında fikirləri mövcuddur.

Nəsimi məhz o şair-mütəfəkkirlərdəndir ki, öz yaradıcılığı ilə dilimizin zənginləşməsinə sanballı töhfə verib. İnsanın iç dünyasının, ruhi dünyasının üzə çıxdığı, aşkarlandığı söhbət məqamının ən uca məqam olduğu irfan əhlinə bəllidir:

*Bir şaha sən qulluq eylə söhbətindən can bitər,*
*Bir sədəfdən çaşnı dadgil, dür ilə mərcan bitər.*

Nəsiminin söz haqqında söylədiyi fikirlərin analizi bunları deməyə imkan verir ki, birincisi, Nəsimi söz, sözyaratma, sözün ilki, başlanğıcı kimi fikirlərdə sözün Allah sözü olması ideyasını irəli sürür və bu ideyasını axıradək davam etdirir. Yəni söz Sahibinindir - Allahındır. İkincisi, söz Allahın seçdiyi, sevdiyi Adəm və Adəm nəslinə verildiyi üçün Adəm övladının ağzından çıxan söz kimi ünvanını tapır:

*Nəzmi Nəsiminin yəqin Allahü nurin şərhidir,*
*Ol nuri hər kim bilmədi həqdən nəsibi nar imiş.*

(Yəni Nəsiminin nəzmi yəqin Allah və nurun şərhidir. O nuru bilməyənin nəsibi cəhənnəm imiş).

*Ey Nəsimi, sözünü töhfə üçün bəhrə ilət*
*Kim, anın diqqətinə dürr ilə mərcan susadı.*

(Ey Nəsimi, sözünü töhfə kimi dənizə göndər, ondakı incəliyə inci də, mərcan da susadı)

Nəsimi dilində sözün xüsusi dadı var. Bu elə bir dada malik ki, hətta şəkəristan belə bu dada susayır:

*Sözlərin dadına şirü şəkər oldu təşnə,*
*Nə şəkərdir bu kim, ana şəkəristan susadı.*

"Nitq necə olmalıdır, nitqin təsir gücü necə olmalıdır?" kimi sualların səlist cavabı, dəqiq cavabı aşağıdakı misralarda öz yerini alır:

*Ey Nəsimi, abi-kövsərdir məgər nitqində kim,*
*Hər kim içər ol şərabi məsti-cavidan olur.*

(Ey Nəsimi, sənin anlatman, nitqin kövsər suyudur ki, hər kim ondan içsə, əbədi məst olur).

İnsanın ruhi varlıq olduğunu öz əsərlərində daim öndə saxlayan İslam mütəfəkkirləri yaranışdan öncə SÖZ-ün varlığını qəbul etmişlər. Nizamı Gəncəvi təsadüfən yazmır ki:

*Söz – canımızdır, eşqin lüğətinə baxsana!*
*Biz sözük, gövdəmizsə yalnız xarabaxana.*

Bu fikirlər Nəsimidə isə insanın başdan-ayağa sözdən ibarət olması aşağıdakı kimi davam etdirilir:

*Görən sənsən, görünən sən gözümdə,*
*Nə var söyləmisən, külli lisansan.*

(Gözümdə görən də sənsən, görünən də, nə var söyləmisən, başdan-başa dilsən).

Sözün psixoloji təsiri, hələ lap qədimdən həkim-xəstə münasibətlərini özündə ehtiva edən deontologiya elminin bir daha sözə söykənməsini açıqlayır:

*Kim ki, sevdasından oldu sayru şəhla gözlərin*
*Şərbəti şirin ləbindir, İsəvi nitqin təbib.*

Şəhla gözlərinin sevdasından xəstələnmənin şərbəti şirin dodağın, həkimi İsa nitqinə bənzər danışığındır).

*Nitq imiş aləmdə mövcud, eşq imiş qaim məqam*
*Bizə bildirdi əzəldən rəhbəri-mövlayi eşq.*

Yaradılış sözlə bağlıdır ki, təkcə "Kun-Ol" kəlməsi ilə kainatın yaradılışı şair-mütəfəkkirlərin fikirlərində təsadüfən yer almır. Hələ böyük Nizami Nəsimidən də əvvəl yazırdı:

*Sözdən bir səs, bir nəfəs gəlməmiş... inan mənə*
*Can girmədi palçıqdan xəlq olunmuş bədən.*

Nəsimi poeziyasında sözün şüurlara çatıb, saf fikirlər yaratması üçün haqq aşığı olmaq lazımdır. Allah sözünün münafiqlərə təsiri olmaz. Bütün peyğəmbərlər Allahın elçiləridir ki, elçilərin işi isə Allah sözünün bəndələrə çatdırılmasıdır. Elə bu fikri İsa peyğəmbər timsalında Nəsimi nəzmə çəkir:

*Nəsiminin sözü gərçi dəmi-İsadır, ey münkir,*
*Sənə kar eyləməz niçün ki, yoxdur həqqə iqrarın.*

(Nəsiminin sözü , ey inkarçı, İsanın nəfəsidir. Ancaq sənə təsir etməz, ona görə ki, haqqa iqrarın yoxdur). Düşünəndə ki, nitq mədəniyyətinin əsasında söz dayanır, o zaman sözlə əlaqəli elmi məqalələrin rolu bir daha gündəmə gəlir. Təbii ki, bir konfrans məqaləsi ilə Nəsimi yaradıcılığında sözün yerini işıqlandırmaq fikrindən uzağıq. Bu gün qloballaşma dediyimiz çağımızda xalqların öz milli dillərini qorumaq hissinin gücləndiyi bir vaxtda klassiklərə yenidən üz tutmaq indi daha da aktuallaşıb. Nəsimi yaradıcılığında sözlə, nitqlə bağlı fikirlərin gələcəkdə də tədqiq olunmasının, onun gənc nəslə çatdırılmasının Azərbaycan nitq mədəniyyətinin inkişafı baxımından mühüm töhfə olacağı bəri başdan aydındır.

**Nağdəli ZAMANOV,**
*III Daxili xəstəliklər kafedrasının dosenti*

# Ətraf mühitin mühafizəsi zamanın qlobal problemidir

**Bizi əhatə edən mühitdə olan bütün proseslər və mövcudluqlar bir-biri ilə sıx surətdə əlaqəlidir. İnsan da təbiətin, biosferin kiçik bir hissəsi, canlı elementidir. Əsrlər boyu insanlar təbiətə uyğunlaşmağa yox, ona təsir etməyə çalışıblar. İnsanın istənilən fəaliyyəti təbiətə, ətraf mühitə müəyyən təsir göstərə, biosferin insan üçün təhlükəliliyinə şərait yarada bilər.**



Müasir dövrdə insanların düçar olduğu xəstəliklərin 80-90%-i elə onların özlərinin tarazlığını pozmuş olduqları ətraf mühitin əlverişsiz təsirləri hesabına meydana çıxır. Hazırda ətraf mühitin antropatogen toksiki çirklənməsi kəskin problemə çevrilmişdir. İnsan fəaliyyəti nəticəsi olaraq dünyada hər il ətraf mühitə 25-30 milyardlarla ton karbon qazı, 60-70 milyard tonlarla azot oksidləri və s. toksiki maddələr xaric edilir.

Sənaye müəssisələrinin, avtomobil, dəniz və hava nəqliyyatının tullantıları, atom sınaqları, dünyada baş verən silahlı toqquşmalar, kənd təsərrüfatında tətbiq olunan mineral gübrələr, pestisidlər və s. sayəsində atmosferin fiziki və kimyəvi tərkibinin ciddi dəyişiklikləri baş verir və ekologiyamız ağılasığmaz dərəcədə çirklənməkdədir. Bu isə sağlamlığın tənəzzülünə gətirib çıxarır.

Ekologiyanı, ətraf mühiti çirkləndirən saysız-hesabsız müxtəlif tərkib, mənşə və xassəli bu kənar maddələr əsasən havada, torpaqda, suda və qidamızda toplanırlar. Toksiki maddələr bu mühitlərdə parçalanıb müəyyən itkilərə məruz qalsalar da, onların bir çoxu ətraf mühitdə öz tərkib və xassələrini uzun müddət - 10, hətta 100 illərlə saxlaya bilirlər.

Kənar toksiki maddələr yeyinti məhsulları, qida xammalı və hazır qidalar tərkibində bədənə daxil olarkən orqanizmdə fermentativ və bioloji təsirlərdən müəyyən dəyişikliklərə, parçalanma və itkiyə məruz qalsalar da eyni zamanda həm də yeni - daha təhlükəli üzvi tərkibli birləşmələrə də çevrilə, daha ciddi, geridönməz dəyişikliklərə, ağır patologiyalara səbəb ola bilirlər.

Tənəffüs etdiyimiz hava ilə orqanizmimizə daxil olan atmosfer çirkləndiriciləri bədənə, əsasən yuxarı tənəffüs yollarına və ağciyərlərə, su və qida ilə daxil olanlar isə həzm sistemi orqanlarına yerli təsir edir, həmçinin daxil olduqları, toplandıqları üzv və sistemlərdə ümumi dəyişikliklər törədə bilir, orqanizmin mühafizə sistemlərinə, immunitetinə güclü təsir göstərə, seçici təsirindən əlavə müxtəlif orqan və sistemlərin funksional dəyişikliklərinə və təhlükəli patologiyalarının inkişafına səbəb ola bilirlər.

Son zamanlar yüksək bioloji fəallığa malik kimyəvi birləşmələrin uzaq təsirləri nəticəsində bir sıra xroniki xəstəliklər, sinir sistemi dəyişiklikləri, dölün bətndaxili inkişaf pozğunluqları, müxtəlif eybəcərliklər, allergiyalar, bədxassəli törəmələr və s. patologiyalar dərəcədə artmış, onların diaqnostikası kifayət qədər çətinləşmiş, hətta bəzən mümkünsüz olmuşdur. Ekoloji çirklənmələr orqanizmin immun sisteminə sarsıdıcı təsir göstərmək imkanına malikdir. Bu təsirlərdən daha çox körpələr, qocalar, xəstələr əziyyət çəkirlər. Ekoloji fəlakətlər endoekoloji "orqanizmdaxili" faciəyə gətirib çıxarmışdır.

Hazırda başqa sahələrdə olduğu kimi məişətimizdə, qida sənayesində, ictimai iaşə və ticarət şəbəkələrində də sintetik plastik materiallardan geniş aspektdə istifadə edilməkdədir. Bunların əsas üstünlükləri ağac, metal və kağızdan hazırlanan müvafiq məmulatlara nisbətən istehsalının asanlığı, yüksək iqtisadi səmərəliliyi - ucuz başa gəlməsi, tətbiqinin əlverişliyi və dözümlülükləridir .

Polimer materiallar və polietilen məmulatların 100-dən çox növləri mövcuddur və bunların tətbiqinə müvafiq icra hakimiyyətləri tərəfindən icazə verilmişdir. Onların hər birinin konkret "təhlükəsiz" tətbiq sahələri barədə ədəbiyyatlarda kifayət qədər məlumatlar da əksini tapmışdır. Məlumdur ki, bu məmulatlardan öz məqsədinə və düzgün istifadə edilərsə sağlamlıq üçün təhlükə kəsb etməzlər.

Lakin onların tullantıları ətraf mühitdə, torpaqda və su hövzələrində uzun illər (qərinələr) ərzində dəyişilməz qaldığı, parçalanmadığına görə ekologiyaya ciddi ziyan vurur, bu mühitlərin özünütəmizləmə imkanlarını tormozlamaqla torpağın və su hövzələrinin flora və faunasının məhvinə gətirib çıxarmaqla ətraf mühit üçün ciddi bəlaya çevrilməkdədirlər.

Son zamanlar bir sıra ölkələrdə bu materialların istifadəsinə qadağalar tətbiq olunmaqdadır. Lakin belə sintetik məmulatlardan istifadənin tamamilə aradan qaldırılmasını təsəvvür etmək çətindir. Yeganə əlac bu məmulatların tullantılarının düzgün toplanıb uzaqlaşdırılması və məqsədyönlü utilizasiyası üsullarının işlənib hazırlanması ola bilər.

Təmiz ekoloji mühit insanların sağlamlığının qorunması, həyat keyfiyyətinin, ömür uzunluğu və əmək qabiliyyətinin yüksəldilməsində aparıcı rola malikdir. Bu baxımdan ətraf mühitin mühafizəsi daim qayğı tələb edir və bu həm dövlətin, həm müvafiq icra qurumlarının, eləcə də xalqını, vətənini sevən hər kəsin, hər birimizin vətəndaşlıq borcumuzdur.

**İbrahim ƏHMƏDOV,**
*Qidalanma və kommunal gigiyena kafedrasının müdiri*
**Qəribə HACIYEVA,**
*kafedranın dosenti*

# Ölkəmizdə ilk dəfə 3D görüntülü cihazla əməliyyat aparıldı

**Azərbaycanda ən modern texnologiya əsasında unikal tibbi əməliyyatların icra olunduğu Tədris Cərrahiyyə Klinikasında növbəti ilkə imza atılıb. Azərbaycan Tibb Universitetinin Tədris Cərrahiyyə Klinikasında ölkəmizdə ilk dəfə olaraq 3D+ Laparoskopik ginekoloji əməliyyat icra edilib.**



Cərrahiyyə əməliyyatı klinikanın II Mamalıq-ginekologiya şöbəsinin müdiri Turab Canbaxışov və komandası tərəfindən uğurla icra olunub. 3D+ formatlı kameranın yaratdığı komfortlu görüntüyə görə əməliyyat gözlənilən müddətdən daha erkən və uğurla başa çatıb. Beləliklə, ATU-nun Tədris Cərrahiyyə Klinikasının həkimləri növbəti dəfə innovativ təchizatdan istifadə edərək müasir əməliyyat icra ediblər.

Üçölçülü təsvirin əsas üstünlüyü ondadır ki, bu zaman həkim daxili orqanları olduğu kimi görüb daha düzgün qərar verə bilir. Orqanlar arasındakı məsafə, onların bir-birinə nisbətən yerləşməsi, dərinliyi – hər bir şey insan gözünün gördüyü kimi əks olunur. Çünki insan gözü istənilən obyekti iki rakursdan müşahidə edib birləşdirir və beynə ötürür. Beləliklə, 3D təsvir yaranır. Yeni cihaz məhz bu cür üçformatlı aydın təsvir yaradır.

Kiçik dəlikdən içəri yeridilən 3D formatlı kameranın köməyilə qarın boşluğunun içi tam gözlə görünən formatda əks olunur. Bu da həkimə imkan verir ki, əməliyyatı daha dəqiq yerinə yetirsin. Sanki həkim açıq əməliyyat yerinə yetirir, amma burada insan gözünün və beyninin işini cihazlar yerinə yetirir.

3D+ Lapraskopik aparatı kameralar və optik linza sistemindən ibarətdir. Bu cihaz xəstənin daxilindəki təsvirləri 3D monitora ötürür. 3D eynəkləri isə monitordakı təsviri həcmli şəkildə görməyə imkan verir.

Tanınmış cərrah-ginekoloq Turab Canbaxışov uğurlu əməliyyata görə bütün komandasına - Ülviyyə Siraclıya, Xanım Hacıyevaya, rezident Fəridə Hacıyevaya, əməliyyat tibb bacısı Lətafət İbrahimovaya və köməkçisi Tərlanə xanıma, peşakar anestezioloqlar Məmməd Şirinov və Aynaz xanıma, texniki işçilər Vüsal və Elnura minnətdarlığını bildirir.

# Əməkdaşlarımız beynəlxalq konfransda elmi məruzə ilə çıxış ediblər

**◆ Rusiyanın Həştərxan şəhərində "Müasir tibbin aktual məsələləri" mövzusunda Xəzəryanı ölkələrin IV Beynəlxalq Elmi-praktik konfransı keçirilib. Beynəlxalq toplantıda universitetimizin Terapevtik və pediatrik propedevtika kafedrasının əməkdaşları - dosent Rəna Rzayeva və assisten Zərifə Məmmədova elmi məruzə ilə çıxış ediblər.**



Dosent Rəna Rzayeva terapiya seksiyasında şəkərli diabeti olan xəstələrin damarlarında izlənilən dəyişikliklərlə bağlı elmi məruzəni konfrans iştirakçılarının diqqətinə çatdırıb. Maraqla qarşılanın çıxışdan sonra məruzəçi auditoriyanın suallarını cavablandırıb. Toplantının sonunda iştirakçılara sertifikatlar təqdim olunub.

Xəzəryanı ölkələrin IV Beynəlxalq Elmi-praktik konfransının iştirakçıları akredasiya-simulyasiya mərkəzi və "Tinaki" reabilitasiya mərkəzinin işi ilə də tanış olublar.

# Nüfuzlu "Metabolites" jurnalında ATU əməkdaşlarının elmi işi dərc edilib

**Farmakoqnoziya kafedrasının əməkdaşlarının elmi işi nüfuzlu Metabolites jurnalında (İF 3.03) dərc olunub. "Caucasian Gentiana Species: Untargeted LC-MS Metabolic Profiling, Antioxidant and Digestive Enzyme Inhibiting Activity of Six Plants" məqaləsi kafedranın əməkdaşları - professor C.İsayev və II- ci kurs doktorantı Aydan Qədimli, eləcə də Rusiya alimləri D.Olennikov, N.Kaşenko, A.Prokopyev, T.Katayeva və N.Çirikovanın, eyni zamanda İsveçrədən Ç.Vennosun birgə əməkdaşlığı sayəsində hazırlanıb.**



***Metabolites* — Open Access Journal**

*Metabolites* (ISSN 2218-1989; CODEN: METALU) is a peer-reviewed open access journal of metabolism and metabolomics, published monthly online by MDPI. The Metabolomics Society (MetSoc) is affiliated with *Metabolites*, and their members receive a discount on the article processing charges.

- Open Access - free for readers, with article processing charges (APC) paid by authors or their institutions.
- **High visibility:** Indexed in the Science Citation Index Expanded (SCIE) - Web of Science from Vol. 6 (2016), EMBASE (Elsevier) and Scopus. Citations available in PubMed, full-text archived in PubMed Central.
- **CiteScore** (2018 Scopus data): 3.75, which equals rank 34/211 (Q1) in the category 'Endocrinology, Diabetes and Metabolism', rank 88/407 (Q1) in 'Biochemistry' and rank 106/375 (Q2) in 'Molecular Biology'.
- **Rapid publication**: manuscripts are peer-reviewed and a first decision provided to authors approximately 15.7 days

Latest Articles

Open Access Article

**Caucasian *Gentiana* Species: Untargeted LC-MS Metabolic Profiling, Antioxidant and Digestive Enzyme Inhibiting Activity of Six Plants**

by Daniil N. Olennikov, Aydan I. Gadimli, Javanshir I. Isaev, Nina I. Kashchenko, Alexey S. Prokopyev, Tatyana N. Kataeva, Nadezhda K. Chirikova and Cecile Vennos

*Metabolites* 2019, 9(11), 271; https://doi.org/10.3390/metabo9110271 (registering DOI) - 07 Nov 2019

Abstract The members of *Gentiana* genus are widely distributed in the Caucasus region where they are used as phytoremedies, but they still have not been studied for their chemical composition and bioactivity. High-performance liquid chromatography with diode array and electrospray triple quadrupole mass detection [...] Read more.

(This article belongs to the Special Issue Plant Metabolomics)

Azərbaycan Tibb Universitetinin digər kafedralarında olduğu kimi, farmakoqnoziya kafedrasında da elmi-tədqiqat işləri aparılır. Kafedrada Azərbaycan florasından olan yabanı dərman bitkilərinin öyrənilməsi istiqamətində elmi işlər yerinə yetirilir. Bu sahədə xüsusən kafedranın doktorant və dissertantları daha fəal iştirak edirlər.

2018-ci ildə ATU ilə Rusiya Federasiyasının Elmlər Akademiyasının Ulan-Ude şəhərində yerləşən Sibir Şöbəsinin ümumi və eksperimental biologiya İnstitutu ilə təbii kimyəvi birləşmələrin tədqiqi sahəsində müştərək tədqiqatların aparılması ilə bağlı birgə əməkdaşlıq haqqında müqavilə imzalanmışdır. Farmakoqnoziya kafedrasının doktorantı Aydan Qədimli "Azərbaycan florasından olan acıçiçək (Gentiana L.) cinsinə aid bəzi bitki növlərinin farmakoqnostik tədqiqi" mövzusunda dissertasiya işi üzərində çalışır. Dərc olunan məqalə də məhz doktorantın yerinə yetirdiyi elmi işi ilə bağlıdır.

Bu məqalədə Qafqaz açıçiçək növlərinin antioksidant və diabetəleyhinə effektə malik olan bioloji aktiv birləşmələr üçün mənbə olduğu müəyyən edilib.

Elmi-tədqiqat işinin bir hissəsi Azərbaycan Respublikasının Prezidenti yanında Elmin İnkişaf Fondunun EİF-2013-9(15)-46/01/3-M-13 qrant layihəsi əsasında qurulmuş elmi - tədqiqat laboratoriyasında yerinə yetirilib.

Elmi məqalə ilə aşağıdakı linkdən tanış olmaq mümkündür:

**https://www.mdpi.com/.2218-1989/9/11/271/pdf**

A.Qədimli hal hazırda Türkiyənin Hacettepe Universitetinin farmakoqnoziya kafedrasında 3 aylıq elmi ezamiyyətdədir. Acıçiçək növlərindən fərdi birləşmələrin alınması və onların farmakoloji xassələrinin öyrənilməsi istiqamətində tədqiqatlar qardaş Türkiyə Respublikasının alimləri ilə birgə davam etdirilir.

# Mütəxəssisimiz iki nüfuzlu xarici jurnalın redaksiya şurasına üzv seçilib

**ATU-nun mütəxəssisi iki nüfuzlu xarici jurnala beynəlxalq məsləhətçi və redaksiya şurasına üzv seçilib.**

I Müalicə-profilaktika fakültəsinin dekan müavini, Tibbi biologiya və genetika kafedrasının baş müəllimi biologiya üzrə fəlsəfə doktoru Aytəkin Həsənova beynəlxalq elmi jurnallarda dərc olunan məqalələrinin səviyyəsinə və aktuallığına görə Beynəlxalq Tədqiqat, Təhsil və Tədris Mərkəzi tərəfindən eyni zamanda iki nüfuzlu xarici jurnala beynəlxalq məsləhətçi və redaksiya şurasına üzv seçilib.



IRETC PRIVATE LIMITED COMPANY — INTERNATIONAL RESEARCH, EDUCATION AND TRAINING CENTER — COMPANY NUMBER 12224486

No: 0010
01 August 2019
LTD IRETC
London, United Kingdom
Private Limited Company.
Company Number 12224486

**ACCEPTANCE LETTER**

Dear Aytakin Hasanova
We are pleased to inform you about your acceptance to the LTD International Research, Education & Training Centre Journals:
Gulustan - Black Sea Scientific Journal of Academic Research (GBSSJAR)
as International Advisory and Editorial Board Member and Editor in chief for medical part, of our journals:
Ambiance in life - International Scientific Journal in Medicine of Southern Caucasus (ALISJMSC)
as International Advisory and Editorial Board Member.
LTD International Research, Education & Training Centre as an organization dedicated research, education & training, to book editing & journals publishing & related academic works.

Sincerely yours,
Alexandra Cuco
*Alexandra Cuco*

Director and Shareholder
LTD International Research, Education & Training Centre.
London, United Kingdom
http://sc-media.org/

©The Baltic Scientific Journals.
©The Southern Caucasus Scientific Journals
©LTD International Research, Education & Training Centre. All rights reserved.

Bu haqda A.Həsənovaya Beynəlxalq Tədqiqat, Təhsil və Tədris Mərkəzinin direktoru Alexandra Cuco tərəfindən təsdiq məktubu gəlib.

Mütəxəssisimiz xromosom patologiyalarının prenatal diaqnostikası sahəsində müasir genetik analiz metodlarından istifadə etməklə yüksək nailiyyətlər əldə edib. Apardığı mühüm elmi-tədqiqat işlərinin nəticələri dünyanın bir neçə xarici ölkələrinin nüfuzlu beynəlxalq jurnallarında rus və ingilis dillərində işıq üzü görüb. Onun tibbi genetika sahəsində apardığı doktorluq elmi tədqiqat işinin bir hissəsi Türkiyədə yerinə yetirilib. Hazırda bu elmi iş birliyi davam etməkdədir.

Qeyd edək ki, bu iş birliyi aktual beynəlxalq məsələlərdə birgə mövqe nümayiş etdirmək, beynəlxalq və regional təşkilatlarda iki ölkə arasında mövcud elmi əməkdaşlığın daha da möhkəmləndirilməsi baxımından çox əhəmiyyətlidir.

Əməkdaşımız Beynəlxalq Tədqiqat, Təhsil və Tədris Mərkəzinin təsis etdiyi jurnallara - Gülüstan-Qara Dəniz Elmi Akademik Tədqiqatlar Jurnalına (GBSSJAR) Beynəlxalq Məsləhətçi və Redaksiya Şurasının üzvü, eyni zamanda jurnalın tibb bölməsində baş redaktor, Cənubi Qafqaz Beynəlxalq Elmi Təbabət Jurnalına (ALISJMSC) isə Beynəlxalq Məsləhətçi və Redaksiya Şurasının üzvü seçilib.

**ATU-nun mətbuat xidməti**

# ATU-nun əməkdaşı ABŞ-da təqdimat keçirdi

**İctimai sağlamlıq və səhiyyənin təşkili kafedrasının əməkdaşı, assistent Aygün Babayeva ABŞ Konqresi tərəfindən həyata keçirilən "Açıq Dünya" adlı ölkələrarası mübadilə proqramında iştirak edib. Proqram Azərbaycanda ali tibb bacısı sahəsinin inkişafı üçün nəzərdə tutulub.**

Bellin kollecinin, Bellin xəstəxanasının, Bellin Allouez Sağlamlıq Mərkəzinin ali tibb bacısının tədris proqramı ilə tanışlıq olublar. Həmçinin, nəzəri və praktik dərslər keçirilib, dərslərin stimulyatorlar vasitəsilə aparılması təcrübədə öyrənilib.

Bundan əlavə, proqram iştirakçıları



A.Babayevanın sözlərinə görə, proqramın ilk hissəsi Vaşinqtonda reallaşıb. İştirakçılar əvvəlcə Konqres binasının kitabxanasında olublar. Onların "Açıq Dünya" Liderlik Mərkəzinin icraçı direktoru Jeyn Sarqus, dövlət orqanları ilə qarşılıqlı əlaqə və səhiyyə siyasəti üzrə məsləhətçi Joy Johnson Vilson ilə görüşləri olub.

Proqramın növbəti hissəsi Grin Bey şəhərində davam edib. Burada iştirakçılar Viskonsin Universitetinin, Viskonsin Şimali-şərq Texniki Universitetinin, Unit Xospisində və Door Kaunti Tibb Mərkəzində palliativ köməyin və qayğının göstərilməsi üzrə təlimdə iştirak ediblər. Müqəddəs Vinsent adına uşaq xəstəxanasının və Viskonsin tibb kollecinin işləri ilə tanışlıq da baş tutub.

Proqram zamanı A.Babayeva ATU-nun fəaliyyəti, ali məktəbdə ali tibb bacısı proqramı üzrə aparılan işlər haqqında məlumat verib. Təmsilçimiz proqram boyunca Azərbaycan haqqında müxtəlif formatlı təqdimatlar edib.

# Kafedranın kitab rəfi

**Situasiya məsələləri ayrı-ayrı hüceyrələrdə və ümumilikdə orqanizmdə baş verən biokimyəvi və fizioloji proseslərin modelini əks etdirməklə, gələcək həkimlərdə peşəkar düşüncə tərzinin formalaşmasına xidmət edir. Təqdim olunan toplu tibb təhsilinin həm bakalavr, həm də rezidentura səviyyəsində istifadə oluna bilər. Vəsaitdə müxtəlif çətinliklərdə 105 situasiya məsələsi və 1000 test toplanmışdır. Situasiya məsələləri və testlər qəbul olunmuş proqrama tam uyğundur. Testlər bölməsinin sonunda imtahanda tələbələrə təklif olunacaq açıq testlərin nümunələri verilmişdir.**







Universitetimizdə ingilis dilində təhsil alan tələbələrin getdikcə artmasını nəzərə alaraq bu il nəşr olunan 288 səhifədən ibarət "Biochemistry laboratory manual theory and methods" adlı kitabda müəlliflər qısa formada nəzəri materialı təqdim etməklə yanaşı, laborator məşğələlər zamanı yerinə yetirilən təcrübələrin metodikaları barədə də müfəssəl məlumat verməyi bacarmışlar. Birinci nəşrdən fərqli olaraq burada klinik cəhətdən əhəmiyyət kəsb edən materiallar da, məsələn, plazma fermentlərinin diaqnostikada istifadəsi, izofermentlər haqqında, ZDR-nin biokimyəvi əsasları və s. verilmişdir.

"Patoloji və klinik biokimya" adlı ikinci nəşri 3 hissədən və 476 səhifədən ibarət olan dərslikdə isə müəlliflər müxtəlif patoloji proseslər zamanı baş verən biokimyəvi dəyişikliklər və bu zaman biokimyəvi proseslərin xəstəliklərin əsas klinik əlamətlərinin inkşafındakı rolu barədə molekulyar, hüceyrə, subhüceyrə, toxuma, orqan və nəhayət, bütöv orqanizm səviyyəsində məlumat verməyi bacarmışlar. Klinik və patoloji biokimyanın əsaslarını mənimsəmək baxımından dərslikdən yuxarı kurs tələbələri, rezidentlər, həkim-mütəxəssislər və həkim-laborantlar istifadə edə bilərlər.



**AZƏRBAYCAN RESPUBLİKASI SƏHİYYƏ NAZİRLİYİ**
**AZƏRBAYCAN TİBB UNİVERSİTETİ**

## KAFEDRALAR ÜZRƏ AŞAĞIDAKI YERLƏRİ TUTMAQ ÜÇÜN MÜSABİQƏ ELAN EDİR:

**Kafedranın professoru:**
- Onkologiya kafedrası - 1 yer

**Kafedraların dosentləri:**
- Tibbi-biologiya və genetika kafedrası - 1 yer
- I Mamalıq və ginekologiya kafedrası - 1 yer (0,5 vahid)
- Nevrologiya kafedrası - 1 yer
- İnsan anatomiyası və tibbi terminologiya kafedrası - 1 yer
- Terapevtik və pediatrik propedevtika kafedrası - 1 yer
- Uşaq cərrahlığı kafedrası - 1 yer (0,5 vahid)
- II Daxili xəstəliklər kafedrası - 1 yer (0,5 vahid)
- Şüa diaqnostikası və terapiyası kafedrası - 1 yer (0,5 vahid)
- III Daxili xəstəliklər kafedrası - 1 yer
- Yoluxucu xəstəliklər kafedrası - 1 yer
- Yoluxucu xəstəliklər kafedrası - 1 yer (0,75 vahid)
- Əczaçılıq texnologiyası və idarəçiliyi kafedrası - 1 yer
- Farmakologiya kafedrası - 1 yer
- Onkologiya kafedrası - 1 yer (0,5 vahid)
- II Mamalıq və ginekologiya kafedrası - 3 yer (0,75 vahid)
- Terapevtik stomatologiya kafedrası - 1 yer (0,5 vahid)
- İctimai fənlər kafedrası - 1 yer

**Kafedraların assistentləri:**
- I cərrahi xəstəliklər kafedrası - 1 yer (0,5 vahid)
- İnsan anatomiyası və tibbi terminologiya kafedrası - 1 yer
- I Uşaq xəstəlikləri kafedrası - 1 yer (0,5 vahid)
- II Uşaq xəstəlikləri kafedrası - 1 yer (0,5 vahid)
- Patoloji fiziologiya kafedrası - 1 yer
- Ağız və üz-çənə cərrahiyyəsi kafedrası - 2 yer (0,75 vahid)
- Ağız və üz-çənə cərrahiyyəsi kafedrası - 1 yer
- Farmakoqnoziya kafedrası - 1 yer (0,5 vahid)
- Əczaçılıq kimyası kafedrası - 1 yer
- Ümumi və toksikoloji kimya kafedrası - 1 yer

**Kafedraların baş müəllimləri:**
- Ümumi və toksikoloji kimya kafedrası - 1 yer
- Farmakoqnoziya kafedrası - 1 yer (0,5 vahid)

**Elmi Tədqiqat Mərkəzi:**
- Eksperimental Endokrinologiya şöbəsi (baş elmi işçi) - 1 yer
- Patoloji proseslərin maddələşdirilməsi və eksperimental terapiya şöbəsi (kiçik elmi işçi) - 1 yer

**Müsabiqədə iştirak etmək üçün sənədlərin təqdim olunma müddəti elan qəzetdə dərc olunduğu gündən 30 gün keçənədəkdir. Sənədlər rektorun adına yazılmış ərizə ilə birlikdə aşağıdakı ünvana təqdim edilməlidir:**

AZ 1007, Bakı şəhəri, Ənvər Qasımzadə küçəsi,14
Telefon: 597-10-08.

## Müsabiqədə iştirak etmək istəyənlərin nəzərinə

**Kafedralar üzrə vakant yerləri tutmaq üçün müsabiqədə iştirak edənlər Elmi katibliyə aşağıdakı sənədləri təqdim etməlidirlər:**

1. Rektorun adına ərizə.
2. Kadrlar uçotunun şəxsi vərəqəsi.
3. Kafedradan verilmiş xasiyyətnamə. Xasiyyətnaməni kafedranın müdiri və həmkarlar təşkilatının sədri imzalamalıdır. Xasiyyətnamənin müsbət və ya mənfi olması, o cümlədən bu şəxsin yeni müddətə kafedrada çalışıb və ya çalışmaması əsaslandırılmalıdır. Kafedra müdiri vəzifəsinə iddiaçılara xasiyyətnaməni fakültənin dekanı və həmkarlar təşkilatının sədri imzalamalıdır.
4. Tərcümeyi-halın çap forması və elektron variantı. Burada şəkil, ad, soyad, bitirdiyi məktəblər, elmi ad və dərəcələr, bildiyi dillər, bildiyi kompüter proqramları, çap olunmuş işlərin sayı, işlədiyi yerlər, hazırkı vəzifədə neçə il çalışması, niyə bu vəzifədə yenidən seçilmək istəməsi, olduğu ixtisasartırma kursları, ailə vəziyyəti barədə ətraflı məlumat, yaşadığı ünvan, elektron poçt ünvanı və telefonu göstərilməlidir.
5. ATU-nun Klinika və Laboratoriyalarında çalışanlar üçün son beş ilin həkimlik fəaliyyəti barədə klinikadan verilmiş arayış. Arayış klinikanın direktoru və həmkarlar təşkilatının sədri tərəfindən imzalanmalıdır.
6. Son beş il ərzində çap olunan elmi işlərin siyahısı. Siyahı müəllif və kafedra müdiri tərəfindən imzalanmalıdır.
7. Açıq mühazirənin və ya açıq təcrübi dərsin videoçəkilişinin diski.
8. Şəxsiyyət vəsiqəsinin surəti.
9. Müvafiq elmi dərəcə diplomu və elmi ad attestatının surəti.

**Qeyd:** ***ATU-nun əməkdaşı olmayan mütəxəssislər siyahıdakı 3-cü, 5-ci və 7-ci bənddəki sənədlərin əvəzinə, sonuncu iş yerindən verilən xasiyyətnamə, işlədiyi klinikadan həkimlik fəaliyyəti barədə arayış və əmək kitabçasından çıxarışı təqdim etməlidir.***

# Tələbələrimiz "Qarabağ Azərbaycandır!" mövzusunda esse müsabiqəsində iştirak ediblər

**YAP-ın Nəsimi rayon təşkilatı tərəfindən bu ilin 2 noyabr tarixində rayon ərazisində yerləşən ali məktəblərdə təhsil alan tələbələr arasında "Qarabağ Azərbaycandır!" mövzusunda esse müsabiqəsinin keçirilməsi nəzərdə tutulub.**






Bu məqsədlə Azərbaycan Tibb Universitetində partiyanın üzvü olan tələbə gənclər də müsabiqədə iştirak ediblər.

Universitetin tədris və müalicə işləri üzrə prorektoru, professor Sabir Əliyev bütün intellektual yarışlarda yüksək nəticələr göstərən tələbələrimizin bu müsabiqədə də ilk yerləri tutacaqlarına əminliyini bildirib və onlara uğurlar arzulayıb.

Qeyd edək ki, essenin qiymətləndirilməsində məzmun bütövlüyü, rabitəlilik, ideyanın dəstəklənməsi və düzgün yazı qaydalarına riayət edilməsi əsas götürüləcək. Müsabiqənin nəticələri isə dekabrın sonuncu həftəsində elan olunacaq və qaliblər təşkilat komitəsi tərəfindən mükafatlandırılacaqdır.

# Nəsimi rayonunda yerləşən təhsil müəssisələri arasında «Bayraq Turniri» keçirilib

**ATU-nun Tələbə Gənclər Təşkilatı və Azərbaycan Universiteti Tələbə Gənclər Təşkilatının birgə təşkilatçılığı, Nəsimi Rayon İcra Hakimiyyəti ilə Nəsimi Rayon Gənclər və İdman İdarəsinin dəstəyi ilə Nəsimi rayonunda yerləşən təhsil müəssisələri arasında "Bayraq Turniri" baş tutub.**



Turnirdə, Nəsimi rayonu ərazisində yerləşən təhsil müəssisələri mübarizə aparıb. ATU, AU, ADU, ADNSU, BMA və Azərbaycan Milli Konservatoriyasının nəzdində Bakı Musiqi Kollecinin təmsilçiləri arasında 5 idman növü üzrə yarışlar keçirilib. 110 nəfərin iştirakı ilə təşkil olunan turnirin yarışları ATU və AU-da baş tutub.

Belə ki, futzal və stolüstü tennis ATU-da, "Nə? Harada? Nə zaman?", şahmat və dama üzrə yarışlar isə AU-da keçirilib.

Dövlət Bayrağı Günü münasibətilə təşkil olunan yarışlarda "Nə? Harada? Nə zaman?", futzal və stolüstü üzrə yarışlarda ATU-nun , Şahmat üzrə AU-nun və dama üzrə yarışda isə ADU-nun təmsilçiləri I yerə layiq görülüblər.

Qaliblər Nəsimi RİH və Nəsimi rayon Gənclər və İdman İdarəsi tərəfindən təltif ediləcəklər.

## Allah rəhmət eləsin!

"Təbib" qəzetinin, Uşaq cərrahlığı, Qidalanma və kommunal gigiyena, Histologiya, embriologiya və sitologiya kafedralarının əməkdaşları və ETM-nin kollektivi Uşaq cərrahlığı kafedrasının professoru Çingiz Quliyevə oğlu

**Səbuhi Quliyevin**

vaxtsız vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

Yoluxucu xəstəliklər, Qidalanma və kommunal gigiyena kafedralarının əməkdaşları Yoluxucu xəstəliklər kafedrasının müdiri, akademik Namiq Əliyevə həyat yoldaşı

**Tamilla xanımın**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

Tibbi və bioloji fizika kafedrasının əməkdaşları kafedranın laborantı Rüxsarə Hacıyevaya əmisi

**Vidadi Hacıyevin**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

ETM- in kollektivi, Ümumi gigiyena və ekologiya, Qidalanma və kommunal gigiyena kafedralarının əməkdaşları Tibbi mikrobiologiya və immunologiya kafedrasının müdiri, professor Həqiqət xanım Qədirovaya həyat yoldaşı

**Rauf Rzayevin**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

Hərbi tibb fakültəsinin əməkdaşları Hərbi tibb məktəbinin rəisi Samir Ağayevə həyat yoldaşı

**Pərvanə xanımın**

vaxtsız vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

Tıbbi və bioloji fizika kafedrasının əməkdaşları kafedranın baş müəllimi Nəzakət Kərimliyə qaynanası

**Həvva Kərimovanın**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

"Təbib" qəzetinin, Tibbi mikrobiologiya və immunologiya, Ümumi gigiyena və ekologiya, Histologiya, embriologiya və sitologiya, İnsan anatomiyası və tibbi terminologiya, Tıbbi və bioloji fizika kafedralarının əməkdaşları Tibbi mikrobiologiya və immunologiya kafedrasının professoru Mehman Əliyevə həyat yoldaşı

**İradə xanımın**

vaxtsız vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

I cərrahi xəstəliklər kafedrasının əməkdaşları kafedranın baş preparatoru Vüsalə Nağıyevaya əmisi

**Səməd Nağıyevin**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

İnsan anatomiyası və tibbi terminologiya kafedrasının əməkdaşları kafedranın assistenti Kəmalə Babazadəyə əmisi

**Zakirin**

vaxtsız vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

Histologiya, embriologiya və sitologiya kafedrasının kollektivi kafedranın baş müəllimi Nigar Quliyevaya qaynı

**Səbuhi Quliyevin**

vaxtsız vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

## Etibarsız sayılır

I müalicə-profilaktika fakültəsinin IV kurs, 162[a] qrup tələbəsi Ələmov Mirulduz Davud oğlunun adına verilmiş tələbə bileti itdiyi üçün etibarsız sayılır.

Stomatologiya fakültəsinin II kurs, 418[i-1a] qrup tələbəsi Zahraa Salman Muntadher oğlunun adına verilmiş tələbə bileti itdiyi üçün etibarsız sayılır.

II müalicə-profilaktika fakültəsinin IV kurs, 391[c] qrup tələbəsi Əsgərli Fərid Kazım oğlunun adına verilmiş müvəffəqiyyət kitabçası itdiyi üçün etibarsız sayılır.

Ümumi gigiyena və ekologiya kafedrasının dosenti Fətullayeva Sevinc Fətulla qızına Ali Attestasiya Komissiyası tərəfindən dosent elmi adının verildiyini təsdiqləyən attestat itdiyi üçün etibarsız sayılır.

Musayev Nazim Kamal oğluna 1988-ci ildə Azərbaycan Tibb Universiteti tərəfindən stomatoloq ixtisası üzrə verilmiş internatura vəsiqəsi itdiyi üçün etibarsız sayılır.

Qasımova Günay Hamlet qızına 2006 -cı ildə Azərbaycan Tibb Universiteti tərəfindən kardiologiya ixtisası üzrə verilmiş internatura vəsiqəsi itdiyi üçün etibarsız sayılır.

Əliyeva Arifə Novruz qızına 1986-cı ildə Azərbaycan Tibb Universiteti tərəfindən pediatriya ixtisası üzrə verilmiş internatura vəsiqəsi itdiyi üçün etibarsız sayılır.

Stomatologiya fakültəsinin I kurs, 419[i-2a] qrup tələbəsi Abdullah Abdullah Abdulaziz oğlunun adına verilmiş tələbə bileti itdiyi üçün etibarsız sayılır.

II müalicə-profilaktika fakültəsinin V kurs, 212[a] qrup tələbəsi Əhmədli Aysel Eldar qızının adına verilmiş tələbə bileti itdiyi üçün etibarsız sayılır.

I müalicə-profilaktika fakültəsinin V kurs, 8[a] qrup tələbəsi Kərimova Elnarə İlham qızının adına verilmiş tələbə bileti itdiyi üçün etibarsız sayılır.

II müalicə-profilaktika fakültəsinin I kurs, 219[r-1a] qrup tələbəsi Qəribov Səid Mais oğlunun adına verilmiş tələbə bileti itdiyi üçün etibarsız sayılır.

I müalicə-profilaktika fakültəsinin I kurs, 119[a-2a] qrup tələbəsi Cəfərov Nail Natiq oğlunun adına verilmiş tələbə bileti itdiyi üçün etibarsız sayılır.

Baş redaktor
ELDAR İSMAYIL

Müəlliflərlə redaksiyanın mövqeyi üst-üstə düşməyə bilər.
*Əlyazmalar geri qaytarılmır.*

Qəzet "Təbib" qəzetinin kompyuter mərkəzində yığılır, səhifələnir, "Bəxtiyar-4" İKŞ-də çap olunur.

ÜNVANIMIZ:
Mərdanov qardaşları - 98[c]
2-ci mərtəbə,
Tel.: 595-24-97
tabibqazeti@gmail.com

Lisenziya H - 022633
İndeks -0269
Sayı 2200